"2008-2012-ci illərdə təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində yaradılan Təhsil Sistemində Elektron Tədris Resurslarının Qiymətləndirilməsi Şurasının əsas məqsədi elektron tədris resurslarının beynəlxalq standartlara əsaslanaraq qiymətləndirilməsi, onların təhsil portalında yerləşdirilməsi və daha effektiv formada tətbiqidir. Şuranın fəaliyyətini Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təhsilin informasiyalaşdırılması idarəsi əlaqələndirəcəkdir.

Təhsil Sistemində Elektron Tədris Resurslarının Qiymətləndirilməsi Şurasının tərkibinə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, AMEA-nın İnformasiya Texnologiyaları və Kibernetika institutları, "Mədəd" humanitar təşkilatı, Microsoft Azərbaycan şirkəti, Azedunet təşkilatı, müəllimlər və qeyri-hökumət təşkilatları daxildir.

Şuranın əsas vəzifələri sırasına bütün orta məktəb kurikulumlarına aid fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlərin işlənməsi və yayımı üzrə tövsiyələrin hazırlanması, elektron tədris və metodiki resurslar kataloqunun yaradılması, təhsil portalında yerləşdirilməsi üzə tövsiyələrin verilməsi, beynəlxalq standartlara uyğun elektron təhsil resurslar bazasının yaradılması, təhsil müəssisələrinin elektron resurs standartlarının və normativlərinin hazırlanmasına dair təkliflərin irəli sürülməsi və digər məsələlər daxildir.